*Nizamişünaslıq 11, №2, 2024, səh. 9-16*

https://doi.org/10.59849/3006-2403.2024.2.9

***Əlimuxtar MUXTAROV***
***Filologiya üzrə fəlsəfə doktoru***
***AMEA-nın Gəncə Bölməsi Nizami Gəncəvi Mərkəzi***
***E-mail: nizamicenter1141@gmail.com***

# AKADEMİK İSA HƏBİBBƏYLİNİN NİZAMİ GƏNCƏVİ DƏRSLƏRİ

*Açar sözlər:* Nizami Gəncəvi, Azərbaycan şairi, Nizami Gəncəvi ili, İsa Həbibbəyli, tədqiqat

Ədəbi cərəyanlar, ədəbi növlər və janrlar üzrə tədqiqatlar aparan, ilk dəfə satiranın ədəbi növ, erkən realizm, postmodernizm, magik realizm, akademizmin isə ədəbi cərəyan olduğunu müəyyən edən, müstəqillik dövrü Azərbaycan ədəbiyyatında təkmetodlu ədəbiyyatdan çoxmetodlu bədii metoda keçid prosesinin baş verdiyini irəli sürən, Azərbaycançılıq, Azərbaycan ədəbiyyatının dövrləşdirilməsi və mollanəsrəddinçilik konsepsiyalarını hazırlayan, XIX–XXI əsrlər Azərbaycan ədəbiyyatı tarixinə dair çoxsaylı tədqiqatların müəllifi olan, Cəlil Məmmədquluzadənin irsini tədqiq edib, ilk dəfə nəsil səcərəsini tərtib edən akademik İsa Həbibbəylinin elmi yaradıcılığı, potensialı ilkin dövrlərdə sadaladığımız istiqamətləri əhatə etsə də, zaman keçdikcə ərsəyə gətirdiyi fundamental elmi monoqrafiyalarla, təkrarsız yenilikçi tədqiqatları ilə biz onun bütöv Azərbaycan ədəbiyyatı tarixçisi olduğunun şahidi olduq.

Akademik İsa Həbibbəylinin Azərbaycan ədəbiyyatı tarixinin görkəmli ziyalıları, nümayəndələri ilə bağlı apardığı tədqiqatların içində heç şübhəsiz ki, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi mühüm yer tutr.

Akademik İsa Həbibbəyli "Nizami Gəncəvinin irsinə və ideallarına yenidən qayıdışa çağırış" məqaləsində söylədiyi: "Nizamişünaslıq dünya elmi olsa da, Azərbaycan dünya Nizamişünaslığının mərkəzidir. Dünya ölkələrində Nizami Gəncəvi haqqında yazılanları tərəzinin bir gözünə, Azərbaycanda aparılan tədqiqatları, çap olunan kitabları və tərcümələri tərəzinin o biri gözünə qoyulsa, Azərbaycan Nizamişünaslığı ağır gələr" [11, 1] tezisdə yer alan, haqqında danışılan qəhrəmanlardan biri də məhz İsa müəllim özüdür. Çünki İsa Həbibbəylinin müasir Azərbaycan nizamişünaslığına verdiyi töhfələr (qələm və düşüncəsi ilə yanaşı, həm də ölkəmizdə və dünyada hörmət bəslənilən ictimai və elm xadim kimi) özünün də qeyd etdiyi tərəzinin ağır gələn gözünü dolduran sanballı əsərlərlə zəngindir.

Biz gənc alimlər olaraq, akademik İsa Həbibbəyli ilə həm çalışdığımız Azərbaycan Milli Elmlər Akademiyası sisteminin rəhbəri olması səbəbilə, həm gənc alim kimi qayğısından, elmindən bəhrələnmək səbəbilə, həm də Nizami Gəncəvi ilə bağlı apardığımız tədqiqatlar səbəbilə bir neçə dəfə görüşmüşük. Və bu görüşlərin birində söylədiyi dahiyanə fikirlərdən biri heç vaxt yadımızdan çıxmır: "Dünyanın Azərbaycanda tanıdığı və Azərbaycanı dünyada tanıdan insan deyəndə mənim ağlıma ilk üç nəfər gəlir. Dahi Nizami Gəncəvi, Ümummilli Lider Heydər Əliyev və Müzəffər Ali Baş Komandanımız İlham Əliyev".

Biz İsa müəllimin bu fikrindən sonra onun Azərbaycan xalqının üç böyük övladı ilə bağlı yazdığı çox kitabları oxuduq və bizə hasil oldu ki, İsa müəllim söylədiyi bu fikirlər elmi əsaslarla onun elmi yaradıcılığında da öz əksini tapmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2021-ci ili "Nizami Gəncəvi ili" elan etməsi ilə bağlı imzaladığı tarixi sərəncamla bağlı verdiyi müsahibələrin birində və eyni zamanda qələmə aldığı "Nizami Gəncəvi ədəbi irsi: Heydər Əliyevdən İlham Əliyevə" məqaləsində bu mətləblə bağlı yazır: "Azərbaycan Respublikasının Prezidenti İlham

Əliyevin 2021-ci ili "Nizami ili" elan etməsi ölkəmizdə klassik ədəbi irsimizə, milli ədəbiyyatımızın və mədəniyyətimizin görkəmli simalarının tanıdılmasına müstəqil Azərbaycan dövlətinin göstərdiyi xüsusi diqqətin və böyük qayğının əməli ifadəsidir". [8, 2].

Bu həm də Prezident İlham Əliyevin Azərbaycan tarixinə, mədəniyyətinə və ədəbiyyatına, adlı-sanlı ədəbi-tarixi şəxsiyyətlərimizə yenidən qayıdış istiqamətində apardığı ardıcıl siyasətin növbəti təzahürüdür. Bundan əvvəl, 2019-cu ilin "Nəsimi ili" adlandırılması bu görkəmli şair və mütəfəkkirin Azərbaycan və dünyaya yenidən tanıdılması sahəsində mühüm addımların atılmasına, ciddi dönüşün baş verməsinə şərait yaratmışdır. Hesab edirəm ki, Azərbaycanda və dünyada kifayət qədər tanınan və böyük şöhrət qazanmış Nizami Gəncəvinin zəngin bədii irsini də müasir dövrdə azərbaycançılıq və müstəqil dövlətçilik işığında yenidən tədqiq və təbliğ etməklə bu görkəmli sənətkarı daha dərindən kəşf etməyə və bütün parlaqlığı ilə tanıtmağa ehtiyac vardır. "Nizami Gəncəvinin nəsil şəcərəsi", "Nizami Gəncəvi yaradıcılığında azərbaycançılıq", "Nizami Gəncəvinin dövlətçilik idealları və müasir dövr", yaxud "Nizami Gəncəvi və Azərbaycan renesansı" və sair kimi problemlər məhz indi, müstəqilliyimizin inkişaf etdiyi bizim günlərdə daha çox aktuallıq kəsb edir. Möhtərəm Prezidentimizin "Nizami ili" haqqındakı mühüm tarixi əhəmiyyətə malik olan Sərəncamı Nizami Gəncəvinin həyatı və yaradıcılığını bütün istiqamətlər üzrə yeni təfəkkür əsasında tədqiq və təhlil etməyə geniş imkan yaradan tarixi sənəd kimi mühüm əhəmiyyətə malikdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Nizami ili" ilə əlaqədar imzaladığı Sərəncam vaxtilə Ümummilli lider Heydər Əliyevin 1979-cu ildə böyük Azərbaycan şairi Nizami Gəncəvinin zəngin irsinin tədqiqi, tərcümə və nəşr edilməsi haqqında qəbul etdiyi qərar əsasında həyata keçirilmiş tədbirlərə yenidən qayıtmaq, başlanmış mühüm işləri daha geniş miqyasda və əhatəli şəkildə, yaradıcılıqla davam etdirmək üçün də geniş meydan açır. Bu baxımdan Nizami Gəncəvinin əsərlərinin dünya dillərinə tərcüməsi, "Xəmsə"nin akademik nəşrinin hazırlanıb çap olunması görkəmli sənətkarın haqqında xarici dillərdə tanıtma kitablarını yazıb nəşr etdirmək baxımından da qarşıda mühüm vəzifələr durur" [11, 3].

Akademik İsa Həbibbəylinin dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi irsinə, yaradıcılığına yüksək diqqət və qayğısının nəticəsində AMEA-nın Rəyasət Heyətinin 11 iyun 2014-cü il tarixli müvafiq qərarı ilə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəzdində "Nizamişünaslıq" şöbəsi yaradılmış və bu şöbədə İsa müəllimin xüsusi qayğısı ilə AMEA-nın müxbir üzvü Nüşabə Araslının rəhbərliyi ilə müasir nizamişünaslığın ən aktual məsələləri tədqiq edilməkdədir.

Akademik İsa Həbibbəylinin dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi ilə bağlı apardığı tədqiqatlar sistemli və ardıcıllıq xarakteri daşıyır və məzmunca, formaca da bir-birini tamamlayır ki, bu istiqamətlərin içində heş şübhəsiz ki, Nizami Gəncəvinin milli mənsubiyyəti, Azərbaycan şairi olması ilə bağlı mövzular, istiqamətlər aparıcı yer tutur.

Nizami Gəncəvi obrazını öz dolğunluğu ilə, tarixi faktlar və müəllif təxəyyülünün inteqrasiyası fonunda əks etdirən ən böyük dram əsərlərindən biri xalq şairi Nəriman Həsənzadənin "Atabəylər" dramıdır. Mənzum dramla bağlı akademik İsa Həbibbəyli "Müasirlik işığında bədii yanaşma" ön söz məqaləsində yazır: "Mənzum tarixi dram kimi xüsusi əhəmiyyətə malik olan "Atabəylər" dramı (1984) elmi tədqiqatda Səməd Vurğunun "Vaqif" mənzum dramının yarandığı vaxtdan (1938) keçən təxminən qırx ildən artıq zaman ərzində bu janrda ədəbi-mədəni mühitin fövqünə qalxa bilən sanballı bir əsərdir və "görkəmli şərqşünas professor Rüstəm Əliyevin Nizami Gəncəvinin Naxçıvana səfəri haqqındakı elmi açıqlamaları bədii təxəyyüldə ehtimal olunan görüşün tarixi gerçəklik olduğunu yəqinləşdirdi". Bu fakt Nəriman Həsənzadənin tarixə bədii yanaşmasının elmi məntiqə əsaslandığını nümayiş etdirir [12, 2-3].

İsa müəllimin hələ o dövrdə söylədiyi bu fikir müəyyən qədər birmənalı qarşılanmasa da, zaman keçdikcə həm dövrümüzün görkəmli nizamişünas alimi, mərhum professor Xəlil Yusifli bu mövzuya olğun tezis kimi yanaşdı, həm də İsa müəllim özü yenidən bu mövzunu ələ aldı.

Əməkdar elm xadimi, professor Xəlil Yusifli 2021-ci ildə-Nizami Gəncəvi ilində akademik İsa Həbibbəylinin 10 dildə nəşr olunan "Böyük Azərbaycan şairi Nizami Gəncəvi" monoqrafiyası ilə bağlı yazdığı "Dünyaya ünvanlanan kitab" məqaləsində yazırdı: "Nizami Gəncəvi özünün də dönə-dönə yazdığı kimi ömrü boyu Gəncədə yaşamışdır. Ömründə ancaq bircə dəfə Gəncədən otuz günlüyə ayrılmış, Qızıl Arslanla görüşə getmişdir. Bu görüşün Naxçıvana yaxın bir yerdə şahın hərbi düşərgəsində baş tutduğu düşünülür. Bu görüşün 1187-ci ildə və ya 1190-cı ildə baş tutması məsələsi mübahisəlidir. İsa Həbibbəyli bu görüş zamanı Nizaminin məşhur Azərbaycan memarı Əcəmi Əbubəkr oğlu Naxçıvani ilə görüşməsi haqqında ehtimallar olduğunu da yazır. Akademik İsa Həbibbəyli bu fikirdədir ki, bir çox səbəbdən bu iki nəhəng sənətkarın görüşməsi haqqındakı mülahizələr məntiqə uyğundur. "Memarlığın daş "Xəmsə"sini yaratmış böyük Azərbaycan memarı Əcəmi Naxçıvaninin onunla eyni dövrdə yaşamış söz sənəti "Xəmsə"sinin qüdrətli yaradıcısı Nizami Gəncəvi ilə görüşməsi bu iki böyük dühanın bir-birinin yaradıcılığına və xidmətlərinə hörmət və ehtiramının ifadəsi deməkdir". Elə buradaca İsa müəllim XIX əsr rus rəssamı A.Bondarenkonun həmin görüşə həsr edilmiş rəsm əsərini xatırladır. Biz buraya ancaq onu əlavə etmək istərdik ki, Nizami "aslanın erkəyi, dişisi olmaz" deyərək qadına yüksək münasibət bəslədiyini bildirirsə, yaratdığı qadın surətlərini insani cizgilərlə təqdim edirsə, Əcəmi Naxçıvani qadının məqbərəsi üzərində möhtəşəm bir abidə ucaldır. Həm də maraqlı cəhət odur ki, belə bir abidənin yaradılmasını Möminə xatunun əri Şəmsəddin Eldəniz sifariş edir, yarımçıq qalan işin davamını isə oğlanları Cahan Pəhləvan və Qızıl Arslan gördürürlər. Bu hadisə Azərbaycanda qəribə və müstəsna bir hadisədir. Nizami əsərlərində Məhinbanu, Şirin, Nüşabə, Fitnə, Tiptli Mariya, Nistəndərcahan kimi qadın surətlərinin yaranmasının bu xalqın ruhundan qidalandığını deməyə əsas verir" [14, 3-4].

Qeyd etdiyimiz kimi Akademik İsa Həbibbəyli özü də bu mövzunu daha da inkişaf etdirərək yenidən bu mövzuya qayıdaraq hətta Nizami Gəncəvinin Zəngəzur səfəri tezisini irəli sürdü ki, bu da öz növbəsində təkcə tarixi baxımından deyil, həm də müasir günümüz üçün də olduqca əhəmiyyətli və aktual yanaşma oldu.

2023-cü ildə "Nizami Gəncəvi Zəngəzura səfər edibmiş" başlıqlı müsahibəsində yazır: "Zəngəzur dəhlizi məsələsi Zəngəzur probleminin öyrənilməsini tələb edir, bu da ayrı bir mövzudur. Akademiyada işğaldan azad olunmuş ərazilərlə bağlı Dövlət Proqramının tərkib hissəsi kimi elmi tədqiqatlar aparılır, kitablar çap olunur, o cümlədən Qərbi və Şərqi Zəngəzurla bağlı. Yeni nəslin əsərlərinin ingilis və digər dünya dillərində dünyada çap olunmasına əvvəlki kimi maneələr yoxdur. Düzdür, təşəbbüslər azdır, təəssüf ki...Biz başa düşürük ki, elmimizin nailiyyətlərini dünyaya çatdırmasaq, öz həqiqətlərimizi, dünyaya çatdıra bilməyəcəyik. Zəngəzur həqiqətləri ilə bağlı Tarix İnstitutunda iki yaxşı kitab yazılıb, biz onları ingilis dilinə tərcümə etmək istəyirik. Sizinçün də maraqlı olar, mən indi bu mövzuda yazmağa hazırlaşıram: Nizami Gəncəvi Zəngəzura səfər edib, Atabəy hökmdarı ilə görüşüb. Xeyli materiallar toplamışam, yaxın günlərdə bu barədə yazacağam. Zəngəzur qədim Azərbaycan torpağıdır. Mən inanıram ki, aparılan siyasət, ortaya qoyulan mövqe Zəngəzur dəhlizinin açılmasının həyata keçirilməsini təmin edəcək, siz də, biz də, dünya xalqları da Çindən Avropayadək Zəngəzur dəhlizindən keçib gedə biləcəklər" [16].

Biz də həm Nizami Gəncəvi həm də İsa Həbibbəyli sevərlər olaraq, hörmətli akademikimizin qələmə alacağı bu zəngin, tarixi və yeni yanaşmalı tədqiqatı böyük həvəslə, səbirsizliklə gözləyirik.

Akademik İsa Həbibbəyli dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi ilə bağlı apardığı tədqiqatlarla dahi mütəfəkkirin milli mənsubiyyəti etibarilə türk oğlu türk olduğunu həm dünya ictimaiyyətinə, həm də Azərbaycan oxucularına yeni, zəngin tarixi məlumatlarla çatdıran alimlərdən biridir.

"Nizami Gəncəvinin böyük Azərbaycan şairi olduğunu dünya ictimaiyyəti qəbul edir" məqaləsində yazır: "Nizami Gəncəvinin Azərbaycan şairi olması haqqında ən mötəbər mənbələrdən biri də dahi şairin özünün qələmindən çıxmış "Xəmsə" poemalar xəzinəsidir. Dövrün ədəbi ənənəsinə uyğun olaraq fars dilində yazılmış "Xəmsə" poemalar dəstinə daxil olan əsərlərin hər birində Nizami Gəncəvi özünün türk kimliyi ilə iftixar etdiyini açıq aşkar bəyan etmiş, əsərlərində dəfələrlə Azərbaycan atalar sözləri və məsəllərindən, frazeoloji birləşmələrdən, xalqımıza məxsus olan sözlərdən istifadə etmişdir. Nizami Gəncəvinin poemalarında XII əsrdə baş vermiş Gəncə zəlzələsindən və Kəpəz dağından söz açılmış, ata-baba yurdu olan oğuzların qədim məskənlərindən biri kimi tanınan Gəncə şəhəri ilhamla tərənnüm edilmişdir. Məlum olduğu kimi, Gəncə şəhəri XII əsrdə Azərbaycan Atabəylər dövlətinin paytaxtı kimi tarixə düşmüşdür. Nizami Gəncəvinin atası Yusif və babası Zəki Müəyyəddin də azərbaycanlı idi. Nizami Gəncəvinin atası və anasının məzarları da şairin Gəncə şəhərindəki məqbərəsinin yerləşdiyi qəbiristanlıqdadır. Şeyx Nizami Gəncəvi adı ilə böyük şöhrət qazanmış Nizami Gəncəvinin mənsub olduğu nəslin davamçıları sonrakı əsrlərdə də Gəncə şəhərində yaşamışlar. Azərbaycan Xalq Cümhuriyyəti hökumətində Milli təhlükəsizlik naziri vəzifəsində çalışmış Nağı bəy Şeyxzamanlı da mənşə etibarilə Şeyx Nizami Gəncəvinin mənsub olduğu nəslin nümayəndəsidir. Hazırda dünyanın müxtəlif ölkələrində Şeyxzamanov, Şeyxzamanlı soyadı ilə yaşamaqda davam edən, Nizami Gəncəvi ilə eyni şəcərədən olan azərbaycanlı sülalələr vardır" [13, 1].

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəylinin bu tezisində ehtiva edilən fikirlərdən çıxış edərək tərtibçisi olduğumuz "İlham Əliyevin Gəncə şəhərinə səfərləri" kitabında və Türkiyədə təşkil edilən "Genceli Nizami" beynəlxalq konfransında mövzuya müxtəlif rakurslardan belə toxunmuşduq: "Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 21 yanvar 2012-ci ildə Gəncə şəhərinə səfəri çərçivəsində xüsusi göstərişi ilə abadlıq və quruculuq işləri aparılmış Cavad xan küçəsinin açılışında iştirak edərkən ziyarət etdiyi məkanlardan biri də Nizami Gəncəvinin mənsub olduğu Şeyxzamanovlar nəslinin yaşadığı ev oldu ki, bu da tarixə işıq tutan mühüm faktlardan biri idi. "Cavad xan küçəsi ilə tanışlığı davam etdirən Prezident İlham Əliyevə məlumat verildi ki, Nizami Gəncəvinin mənsub olduğu Şeyxzamanovlar nəslinin yaşadığı ev də burada yerləşir. Bundan başqa, Azərbaycan Xalq Cümhuriyyəti [AXC] dövründə "Azərbaycan" qəzetinin ilk nömrəsinin dərc olunduğu tarixi mətbəənin binası əvvəlki görkəminə qaytarılmışdır. AXC-nin qurucularından olan Xasməmmədov qardaşlarının yaşadığı ev, həmçinin 1899-cu ildə tikilən və alman mühəndisi Zingerin yaşadığı ev də Cavad xan küçəsinin tarixi tikililərindəndir. Qeyd edildi ki, küçədəki bütün tarixi binaların üzərinə lövhələr vurulmuşdur" [6, 139].

Akademik İsa Həbibbəylinin istər ölkəmizdə, istərsə də ölkəmizdən kənarda iştirak etdiyi ən mötəbər tədbirlərdə Nizami Gəncəvi mövzusuna toxunarkən irəli sürdüyü ən ümdə arqumentlərdən biri dahi Gəncəlinin milli mənsubiyyəti ilə bağlı məsələlər olur.

2022-ci ilin iyulunda Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda təşkil edilmiş beynəlxalq konfransda iştirak etmək üçün Bakıya gəlmiş qardaş Pakistan İslam Respublikasının böyük bir alim heyəti akademik İsa Həbibbəylinin təşəbbüsü ilə Gəncə şəhərinə gəldilər və Nizami Gəncəvi məqbərəsi ilə yanaşı, şəhərin digər tarixi memarlıq abidələrini, xüsusilə 44 Günlük Vətən müharibəsində amansız düşmənin Gəncəyə atdığı raketlərin səbəb olduğu dağıntı yerlərini ziyarət etdik.

Akademik İsa Həbibbəyli Gəncə Bölməsində Ulu Öndərimizə, Nizami Gəncəviyə, ədəbiyyata həsr edilən bütün konfranslarda, tədbirlərdə iş qrafikinin imkan verdiyi çərçivədə iştirak etməyə çalışır. Və o, Gəncəyə hər səfərində gənc alimlərlə görüşür, məsləhətlər, istiqamətlər verir ki, bu da hər bir alimin şəxsi inkişafında olduqca böyük əhəmiyyətə malikdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2021-ci ilin Nizami Gəncəvi ili elan etməsi Sərəncamından irəli gələn tədbirlər çərçivəsində akademik İsa Həbibbəylinin təşəbbüsü ilə Akademiyanın yekun konfransı 5 dekabr 2021-ci ildə Gəncədə-dahi Nizami Gəncəvinin vətənində "Yaşayan Nizami Gəncəvi" adlı beynəlxalq konfransla başa çatdı.

Akademik İsa Həbibbəylinin "Yaşayan Nizami Gəncəvi" adlı konfransda söylədiyi giriş nitqindən kiçik bir parçanı sizlərlə də bölüşmək istəyirik: "Hörmətli konfrans iştirakçıları, Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin sərəncamı ilə elan olunmuş, bəyan olunmuş, Nizami Gəncəvi ilinin Akademiya üzrə yekun tədbirini AMEA-nın tədbirlər planına əsasən Nizami Gəncəvini dünyaya verən torpaqda - Gəncə şəhərində Gəncə şəhər İcra Hakimiyyəti ilə AMEA Gəncə Bölməsində keçirməyi qərara almışıq. Bu gün burada AMEA-nın tanınmış, nüfuzlu nizamişünas alimləri, Akademiyanın təmsilçiləri sizlərlə birlikdə "Yaşayan, davam edən Nizami Gəncəvi" konfransında iştirak edirlər. AMEA özünün nizamişünaslığa, Nizami Gəncəviyə aid yekun, zirvə tədbirini Gəncə şəhərində keçirməsi bütövlükdə Azərbaycan xalqının və onun aparıcı hissəsi olan Azərbaycan alimlərinin dahi Nizami Gəncəviyə olan sonsuz məhəbbətini ifadə edir. Eyni zamanda hesab edirəm ki, Gəncə şəhərində Nizami Gəncəvinin doğulduğu torpaqda, onun məqbərəsinin olduğu bir diyarda Nizami Gəncəvinin Akademiya üzrə zirvə toplantısını keçirmək Nizami Gəncəvinin qarşısında yubiley ilinin hesabatını vermək kimi məsuliyyətli və şərəflidir. Hələ 1947-ci ildə sentyabrın 22-dən 25-dək Nizami Gəncəvinin 800 illik yubileyi burada, Gəncə şəhərində Azərbaycan Elmlər Akademiyası və SSRİ Elmlər Akademiyası ilə birlikdə beynəlxalq konfrans keçirmişdir. Həmin konfransda Akademiyanın Prezidenti akademik Yusif Məmmədəliyev, SSR Elmlər Akademiyasının akademiki İvan İvanoviç Meşşaninov, Şərqşünaslıq İnstitutunun direktoru akademik Barnevski, Azərbaycanın xalq şairi Səməd Vurğun, Mehdi Hüseyn çıxış edib, məruzə söyləmişlər. Eyni zamanda həmin tədbirdə o zamanın cavan nizamişünas alimi Həmid Araslı "Nizami və onun yaradıcılığı" adlı elmi məruzə ilə çıxış edib. Bu mənada Akademiyanın Nizami Gəncəviyə aid tədbirləri Gəncədə keçirməyinin böyük ənənəsi vardır. Beləliklə, Ölkə Başçısının elan etdiyi Nizami ilinin Akademiya üzrə yekun, zirvə tədbirini Gəncə şəhərində keçirməklə bir növ həmin böyük ənənəni yenidən davam etdirmiş və yaşatmış oluruq.

Bu məqamda Nizami Gəncəvinin bir kəlamı yadıma düşdü:

Çox iti zehinlər yatan oldular  
Axırda saxsı qab satan oldular...

Hansı ki, Nizami Gəncəvi ola bilərdilər. Bizlərə, Nizami övladlarına saxsı qab satmaq yaraşmaz. Bizim ölkəmizin Prezidenti Ulu Öndərin əsasını qoyduğu yol ilə gedərək millətimizi qalib millət etdi və Azərbaycan-Türkiyə dostluğu fonunda bayrağımızı ən uca zirvələrdə dalğalandırdı. Biz də dövlətimizin yaratdığı bu reallıqla ədəbiyyatımızı, mədəniyyətimizi, iqtisadiyyatımızı, səhiyyəmizi ümumən bütün sahələri ən yüksək inkişaf səviyyəsinə çatdırmalıyıq".

Akademik İsa Həbibbəylinin Gəncə şəhərinə Nizami ruhlu sonuncu səfəri bu ilin mart ayında reallışdı ki, bu səfərin nəticəsində də Gəncə Bölməsində AMEA-nın prezidenti, akademik İsa Həbibbəylinin, Gəncə Bölməsinin sədri, akademik Fuad Əliyevin və Əlişir Nəvai adına Özbək dili və Ədəbiyyatı Universitetinin rektoru, akademik Şöhrət

Siracəddinovun iştirakı ilə Əlişir Nəvai adına Özbək dili və Mədəniyyəti Mərkəzinin əsası qoyuldu.

AMEA-nın prezidenti, akademik İsa Həbibbəylinin müasir Azərbaycan nizamüşünaslığının inkişafındakı xidmətləri, müstəqillik işığında yeni tədqiqat istiqamətlərinin müəyyən edilərək həyata keçirilməsi olduqca böyük və genişşaxəlidir. Akademik yazır: "Bu mərhələnin nizamişünaslığı o şeylərdən yazır ki, onları sovetlər zamanında yazmaq olmamışdır. Müasir nizamişünaslıq Nizami türk oğlu türkdür, türkçüdür yazır. Hansı ki, Sovet İttifaqının dövründə bunu demək mümkün deyildi. Bugünki nizamişünaslıq Nizami oğuz türküdür deyir və ucadan, yüksək səslə deyir. Çağdaş nizamişünaslıq Nizaminin atası Yusif də, anası Rəisə də, dayısı Xacə Ömər də, dostu Əbubəkir ibn Xosrov əl-Ustad da türkdür deyir. Amma bunları sovetlər zamanında demək mümkün deyildi. Doğrudur, Rusiya da daxil olmaqla o dövrdə sovetlər Nizamini azərbaycanlı kimi qəbul edirdilər. Nizamiyə sahib çıxma anlayışı sovet dövründə olmayıb, lakin sovet ittifaqı bütün xalqları əridib sovet xalqı anlayışı yaratmağa çalışdığı üçün biz Nizamiyə ancaq azərbaycanlı deyib keçirdik. Hansı ki, onun nəsil şəcərəsinə, ümumtürk islam şərqinin mütəfəkkiri kimi baxa bilmirdik. Bu anlayış müasir nizamişünaslığın meydana gətirdiyi reallıqdır, ideyalardır. Cənab İlham Əliyevin əsasını qoyduğu və elan etdiyi nizamşünaslığın uğurlarıdır".

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2021-ci ili Nizami Gəncəvi ili elan etməsi münasibətilə 2021-ci ildə AMEA-da 40-dan artıq monoqrafiya nəşr edildi ki, o monoqrafiyaların ən mötəbərlərinin müəllifi akademik İsa Həbibbəyli olmaqla, digər nəşrlərin də ərsəyə gəlməsində bilavasitə böyük xidmətləri olmuşdur.

Akademik İsa Həbibbəylinin 2021-ci ildə 10 dildə (Azərbaycan, türk, ingilis, rus dillərində olan mətn irihəcmli, alman, Çin, polyak, gürcü, Ukrayna və bolqar dillərində) nəşr olunmuş "Böyük Azərbaycan şairi Nizami Gəncəvi" monoqrafiyası, "Nizami Gəncəvi irsi: Heydər Əliyevdən İlham Əliyevə" məqaləsi, layihə rəhbəri olduğu AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun "Nizamişünaslıq" şöbəsinin əməkdaşları ilə birlikdə həmmüəlliflikłə hazırladıqları 984 səhifə həcmində "Nizami Gəncəvi: həyatı və yaradıcılığı" kimi monoqrafiya və məqalələri müasir Azərbaycan nizamişünaslığının ən ümdə və fundamental nəşrlərindəndir.

Bu gün gənc tədqiqatçılar akademik İsa Həbibbəylinin elmi rəhbərliyi və məsləhətçiliyi ilə Nizami Gəncəvinin həyat və yaradıcılığını müasir elmi tələblər çərçivəsində tədqiq edir, araşdırır, yeni-yeni elmi əsərlər yazırlar.

AMEA-nın prezidenti, akademik İsa Həbibbəyliyə Azərbaycan ədəbiyyatının, mədəniyyətinin, nizamişünaslığının inkişafında yorulmaq bilmədən həyata keçirdiyi bütün fəaliyyətlərində uğurlar, can sağlığı, uzun ömür arzulayırıq!

ƏDƏBİYYAT

1. Nizami Gəncəvi "Sirlər Xəzinəsi", Bakı, "Lider", 2004.
2. Nizami Gəncəvi "Xosrov və Şirin" , Bakı, "Lider", 2004.
3. Nizami Gəncəvi "Leyli və Məcnun", Bakı, "Lider", 2004.
4. Nizami Gəncəvi "Yeddi Gözəl", Bakı, "Lider", 2004.
5. Nizami Gəncəvi "İsgəndərnamə", Bakı, "Lider", 2004.
6. Əliyev F. "İlham Əliyevin Gəncə şəhərinə səfərləri", Bakı, , "Elm", 2023 [139 s.].
7. Həbibbəyli İ. "Böyük Azərbaycan şairi Nizami Gəncəvi", Bakı, "Elm", 2021
8. Həbibbəyli İ " Nizami Gəncəvi irsi: Heydər Əliyevdən İlham Əliyevə", "Səs" qəzeti, 07 may, 2021.
9. Həbibbəyli İ. "Nizami Gəncəvi: Həyatı və yaradıcılığı", Bakı, "Elm", 2021.

10. Həbibbəyli İ. “Nizami Gəncəvi: Həyatı və yaradıcılığı”, Bakı, “Elm”, 2021.
11. Həbibbəyli İ. “Nizami Gəncəvinin irsinə və ideallarına yenidən qayıdışa çağırış”, “525-ci qəzet”, 07 yanvar 2021.
12. Həbibbəyli İ. “Müasirlik işığında bədii yanaşma”, “525-ci qəzet”, 15 yanvar 2011.
13. Həbibbəyli İ. “Nizami Gəncəvinin böyük Azərbaycan şairi olduğunu dünya ictimaiyyəti qəbul edir”, 16 mart 2023.
14. Yusifli X. “Dünyaya ünvanlanan kitab”, “525-ci qəzet”, 26 dekabr 2021-ci il.
15. Muxtarov Ə. “Gəncənin hər qarışında Nizami Gəncəvinin izləri var”, Türkiye-Erzurum, Atatürk Universiteti, “Altunyayınevi”, 2022.
16. https://science.gov.az/az/news/open/26795, 28 oktyabr 2023

***Алимухтар МУХТАРОВ***
***Доктор философии по филологии***

## УРОКИ НИЗАМИ ГЯНДЖЕВИ ОТ АКАДЕМИКА ИСЫ ГАБИББЕЙЛИ
## *РЕЗЮМЕ*

*Ключевые слова:* Низами Гянджеви, азербайджанский поэт, год Низами Гянджеви, Иса Габиббейли, исследования

Иса Габиббейли, который проводит исследования литературных направлений, литературных видов и жанров, человек, который впервые определил, что сатира является литературным видом, ранние исследования литературных направлений, литературных видов и жанров, который впервые определил сатиру как литературный жанр, ранний реализм, постмодернизм, магический реализм и академизм как литературное течение; который предполагает, что процесс перехода от литературы с одним методом к многометодному художественному методу произошел в период независимости, который подготовил концепции азербайджанства, периодизации азербайджанской литературы и моланасрединизма, кроме того, автор многочисленных исследований по истории азербайджанской литературы XIX-XXI веков, исследовал наследие Джалила Мамедкулизаде и впервые составил генеалогию, хотя его научное творчество и потенциал охватывали направления, перечисленные ранее, со временем он создал фундаментальные научные монографии и уникальные новаторские исследования, следовательно, свидетельствует, что он является историком всей азербайджанской литературы.

Научная деятельность академика Исы Габиббейли в ранние годы была в основном связана с научно-литературно-культурной средой Нахчывана, особенно с творчеством Джалила Мамедкулизаде, но со временем стало очевидно, что он стал историком всей азербайджанской литературы.

Нет сомнений, что великий азербайджанский поэт и мыслитель Низами Гянджеви оказал значительное влияние на исследования академика Исы Габиббейли о выдающихся интеллектуалах и представителях в истории азербайджанской литературы.

***Alimukhtar MUKHTAROV***
***Doctor of Philosophy in Philology***

**LESSONS OF NIZAMI GANJAVI FROM ACADEMICIAN ISA GABIBBEYLI**
***SUMMARY***

*Key words:* Nizami Ganjavi, Azerbaijani poet, Nizami Ganjavi year, Isa Habibbayli, research

Isa Habibbeyli, who conducts researches on literary trends, literary types and genres, the person who first determined that satire is a literary type, early research on literary trends, literary types and genres, who first identified satire as a literary genre, early realism, postmodernism, magical realism, and academicism as a literary trend; who suggests that the process of transition from a single-method literature to a multi-method artistic method took place in the period of independence, who prepared the concepts of Azerbaijanism, periodization of Azerbaijani literature, and Molanasraddinism, furtermore, the author of numerous studies on the history of Azerbaijani literature of the $19^{th}$-$21^{st}$ centuries, researched the legacy of Jalil Mammadguluzade and compiled the genealogy for the first time, although his scientific creativity and potential covered the directions was listed previously, in the course of time he created fundamental scientific monographs and unique innovative researches, consequently, it is witnessed that he is a historian of the whole Azerbaijani literature.

Academician Isa Habibbeyli's scientific work in the early days was mostly related to the scientific-literary-cultural environment of Nakhchivan, especially Jalil Mammadguluzade's work, but over time it is obvious that he became a historian of whole Azerbaijani literature.

There is no doubt that the great Azerbaijani poet and thinker Nizami Ganjavi has a significant impact on academician Isa Habibbeyli's research on prominent intellectuals and representatives in the history of Azerbaijani literature.

***Daxil oldu: 15.11.2024-cü il***